# MÜQƏDDƏS TORPAĞA ŞANLI QAYIDIŞ

## *Azad Şuşada Azərbaycanın görkəmli dövlət xadimi, mütəfəkkir, şairə Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunan tədbir və Şuşaya ilk səfərim*



*(Əvvəli ötən saylarımızda)*

1918-ci ildə Ağdamı, Əsgəranı və Şuşanı andranikin mənfur quldur, qaniçən, cəllad dəstələrindən qurtaran türk-azərbaycan qardaşlığının orduları, o andan 102 il sonra -2020-ci ildə bu dəfə türklərin mənəvi və siyasi dəstəyi ilə Şuşanı qanları və canları bahasına andranikin "nəvələrindən" xilas edən Şəhidlərimiz, Qazilərimiz uğrunda canlarından, canlarının bir hissəsindən keçdikləri bu yerləri müqəddəsləşdirdilər. Onlar Şuşanı bizim ovcumuzun içərisinə qoyub göz bəbəyi kimi qorumağımız üçün ovcumuzu da möhkəm-möhkəm sıxdılar ki, onu bir də əlimizdən buraxmayaq. Şuşa bizə onların əmanəti oldu və bu əmanəti biz qiyamət gününə qədər gözümüz kimi qorumalıyıq və qoruyacağıq.Bu, bizim müqəddəs borcumuzdur.

Şuşa şəhərinə, o müqəddəs məkana çatan zaman ilk dayandığımız yer şəhərimiz mənfur düşmənlərimizdən azad edildikdən sonra təntənəli surətdə istifadəyə verilən "Qoç Ət" restoranı oldu. Burada avtobusdakı yolyoldaşlarımızla birlikdə uzun-uzadı söhbət etdik, yol təəssüratlarımızı bölüşdük və uzun yolun, əgər demək düz olarsa, "yorğunluğunu" çıxardıq. Əslində mən yorulmamışdım, sadəcə xəyallar aləmindən reallığa qayıtmaq, fikrimi cəmləşdirmək istəyirdim. Şuşada bir dilim belə yavan çörək yeməyin, Natəvan bulağından bir udum su içməyin nə demək olduğunu sözlə ifadə etmək mümkünsüzdür. Bəzən elə anlar olur ki, o anları sözlə ifadə etmək olduqca çətinlik yaradır,həmin anı tam dərk etmək üçün o anı yaşamaq və yaşatmaq lazımdır. Hər bir insana belə anlar nəsib olur. Mən də həmin gün yaşadığım o gözəl anları, o xoş xatirələri ömrümün sonuna qədər qəlbimdə yaşayıb yaşadacağam.

"Qoç ət" restoranında olduğumuz zaman orada Şuşada keçirilən beynəlxalq tədbirə dəvət olunmuş özbək qardaşımız, şair Mansur Xocayev ilə görüşüb tanış oldum. Mansur qardaşözünü təqdim etdi və Azərbaycan ilə bağlı çox gözəl və mənalı xatirələrindən söhbət açdı. O dedi ki, uşaqlıq çağlarında onun atası tez-tez Azərbaycanla bağlı söhbətlər edər, azərbaycanlı müğənnilərin oxuduğu mahnıları, xüsusilə də, "Ay mənim Arzu qızım" və "Əmiqızı" mahnılarını tez-tez zümzümə edərmiş.Məhz həmin uşaqlıq xatirəsində qalmış musiqinin ona olan xoş təsirinə görə ailə qurduqdan sonra dünyaya gələn qızının adını sevə-sevə Arzu qoymuşdur. O, həmçinin qardaş Özbəkistan Respublikasında Azərbaycana göstərilən hörmət, qardaşlıq münasibəti və səmimiyyətdən də ağız dolusu danışdı. Biz Mansur qardaşımızdan onu da öyrəndik və fəxr etdik ki, özbək qardaşlarımızın əlindən Azərbaycan ədəbiyyatının klassiklərinin kitabları düşmür. Ən çox da dahi şair Nizami Gəncəvi sevilir, oxunur və öyrənilir .Türkdilli xalqlarımızın ədəbiyyatımıza, keçmişimizə bu səmimi, isti münasibəti məni olduqca fərəhləndirdi.

Həmin vaxt xalq şairimiz çox hörmətli Vahid Əziz də orada bizim masamızla qonşu masada əyləşmişdi. Vahid müəllim ilə görüşmək və söhbət etmək kimi böyük şərəf mənə məhz Şuşa şəhərində, azad Şuşada "Qoç ət" restoranında nəsib oldu. O, mənə bildirdi ki, məni sosial şəbəkələrdən izləyir və tanıyır. Bu, mənim üçün böyük xoşbəxtlik vəfəxr idi. Vahid müəllim mənə yaradıcılıq işlərimdə uğurlar arzulayaraq bir böyük, ağsaqqal kimi nəsihətlərini və tövsiyələrini verdi. Əminəm ki, onun dəyərli nəsihətləri həmişə mənim yolu-



ma işıq salan mayak olacaq. Sonda Vahid müəllim ilə xatirə fotoşəkli çəkdirərək restorandan çıxdıq və tədbirdə iştirak edəcək nümayəndələrlə birlikdə həyəcanla və sevinc hissi iləpiyada halda Şuşa küçələri ilə gəzə-gəzə Xan qızı Natəvanın 190 illiyinə həsr olunmuştədbirdəiştirak etmək üçünbir zamanlar onun yaşadığı evin yanına gəldik.

Tədbir iştirakçıları üçün ayrılmış avtobuslar cənab prezidentimizin Şuşa şəhəri üzrə Xüsusi Nümayəndəliyinin yerləşdiyi binanın yanında yerləşən məşhur karvansaraya gəlib orada park edilmişdi. Tədbirin keçiriləcəyi yer olan Xurşidbanu Natəvanın evi çox yaxınlıqda idi. Mən qarşımda dikələn bu gözəl və möhtəşəm hökumət binasının qarşısında dayandım və bir müddət bu binanı seyr etdim. Onda bildim ki, qarşısında dayandığım həmin bina bir vaxtlar qondarma artsax adlanan terror dəstəsinin Şuşa şəhərində, tikməsə də, orada yerləşdiyi icra hakimiyyəti binası olub. Şanlı ordumuzun qəhrəman əsgərləri, Şuşa fatehləri bu binanı işğaldan azad edən zaman məhz bu binanın damında ilk olaraq üçrəngli bayrağımızı dalğalandırmış, bu binanın qarşısından müzəffər ordumuzun əsgərləri Şuşa şəhərinin işğaldan azad edilməsini Cənab Ali Baş Komandana məruzə etmişlər.

Bunun fərqinə vardıqdan sonra fikrim məni Şuşanın azad olunduğu o müqəddəs günə - 8 noyabr 2020-ci ilə apardı. O gündən bu günə az vaxt keçsə də, çox şey dəyişib. Bu möhtəşəm dəyişmə bizim böyük qayıdışımızın simvoludur. Bu möhtəşəm dəyişmə güclü inkişafdan xəbər verir. Füzulidə, Zəngilanda, Laçında tikilən Hava Limanlarından, yeni hökumət binalarından,görkəmli şəxsiyyətlərin yenidən tikilən ev-muzeylərindən, türbələrindən, abidələrindən xəbər verir. Bunları fikirləşdikcə düşünürəm ki, Qarabağ və mədəniyyət paytaxtımız olan Şuşamız Ali Baş Komandanın gücü, fədakar zəhməti sayəsində ucaldıqca ucalır, inşəAllah daha da ucalacaq düz ulduza, Aya qədər... Eyni ilə Şuşada gözümüzün qabağında dalğalanan, dalğalandıqca bərq vuran, bərq vurduqca qəlbimizi fərəh hissi ilə titrədən ucalardan uca və müqəddəs üçrəngli, ay-ulduzluAzərbaycan bayrağı kimi...

Bu gözəl binanın qarşısından keçərkən onunla üzbəüz məşhur güllələnmiş heykəlləri də gördüm. Azərbaycanın, Qarabağın 3 dahisi, dünya şöhrətli övladları- Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün yaralı heykəlləri... 30 il boyunca bu torpaqlarda qan su yerinə axınca bu güllə yağışına tutulmuş yaralı heykəllərin yarasında qan qalmadı, qan dinmədi, dayanmadı, hey damcıladı... Qan axdıqca axdı, sanki bitib-tükənmək bilmirdi. Ancaq cə-



nab Ali Baş Komandanımız Şuşaya səfər edərkən bu güllələnmiş heykəlləri Şuşa ilə qovuşdurduğu zaman 30 il dayanmadan sızan qan dayandı və qanı dayanan o yara sağalmağa başladı, o bölgəyə təzə ruh, təzə nəfəs və təzə həyat gətirdi. Heykəllər və ruhların yaraları sağaldı, ruhlar şad oldu, heykəllər yenə əvvəlki kimi öz layiq olduğu yerdə dimdik durdu möhtəşəm heykəl kimi... Ali Baş Komandanımız Qarabağda getdiyi hər yerə təzə nəfəs, təzə həyat verdiyi kimi bu yerlərə də, bu ruhlar məskənlərinə də həyatı qaytardı. Şuşada həyat canlanıb və bir gün elə canlanacaq ki, belə canlanma heç bir zaman Qarabağdan başqa bir yerdə müşahidə olunmayacaq. Qarabağda abad olmayan yer qalmayacaq.

Xurşidbanu Natəvanın büstünün önündə böyük şairənin 190 illik yubileyinə həsr etdiyim "Natəvan" şeirimi söylədikdən sonra digər iki dünya şöhrətlilərimiz -Üzeyir bəy Hacıbəylinin və Bülbülün büstünü ziyarət etdim, onların ruhuna dua oxudum və layiq olduqları yerə qayıtdıqları üçün onların büstlərinə gözaydınlığı da verdim. Sonra tədbirin keçirildiyi yerə - şairənin yaşadığı evin qarşısına gəldim, oturacaqların birində əyləşdim və tədbirin başlamasını gözlədim.

Tədbir başlamazdan əvvəl Mədəniyyət Nazirliyinin səlahiyyətli əməkdaşı Akif müəllimin vasitəsi ilə tədbirin təşkilatçısı olan Mədəniyyət nazirimiz cənab Anar Kərimovla görüşdüm. Öyrəndim ki, nazirimiz mənim tədbirə gəlib-gəlməyəcəyimlə bağlı hətta bir neçə dəfə əməkdaşlarındansoruşubmuş. Anar müəllim mənimlə söhbətində səyahətimin, ziyarətimin necə keçdiyi ilə bağlı maraqlandı, suallar verdi və sonda dedi: "Görürsən, biz sənə Qəbələdə 21.07.2022-ci ildə görüşümüz zamanı söz vermişdik ki, Şuşada keçirilən tədbirlərə dəvət alacaqsan və bu sözümüzü yerinə yetirdik, yəni cənab Prezidentimizin dediyi kimi "Sözümüz imzamızdır!". Bu söz öz-özlüyündə mənim üçün böyük hədiyyə idi. Cənab nazirdən bu sözləri eşitmək məni çox sevindirirdi. Təbii ki, cənab nazirin təqdirəlayiq işləri, layihələri və bu layihələrin icrası ilə bağlı çəkdiyi zəhmət, sərf etdiyi əmək göz önündədir. Lakin cənab nazirin mənə göstərdiyi bu diqqət hər zaman olduğu kimi bu dəfə də məni sevindirmişdi və indi də o fəxrin mənə verdiyi sevincin içərisindəyəm. Mən göstərdiyi qayğı və diqqətə görə cənab nazirimiz Anar Kərimova dərin minnətdarlığımı bildirdim. Ona Qəbələdə görüşümüzün təəssüratları ilə əlaqədar yazdığım və "Kredo" qəzetinin 10 avqust 2022-ci il tarixli 32-ci sayında dərc edilmiş "Mədəniyyət nazirimiz hörmətli Anar Kərimovun qəbulundan və onunla görüşümdən təəssüratlarım" adlı məqaləmi təqdim etdim. Sonda yenidən təşəkkürümü bildirərək tədbiri izləmək üçün yerimə qayıtdım. Mən bir Azərbaycan gənci, bir gənc şair, publisist, bir vətənsevər kimi cənab nazirimiz Anar Kərimovu bu məsul vəzifəyə layiq bildiyi üçün hörmətli cənab Prezidentimiz İlham Əliyevə öz adımdan və Azərbaycanın yaradıcı gəncləri adından dərin minnətdarlığımı bildirirəm.

Nəhayət ki, səbirsizliklə gözlədiyim anlardan biri də gəlib çatdı və tədbir başladı. Tədbiri giriş sözü ilə nazir Anar Kərimov açdı, tədbir iştirakçılarını və qonaqları azad Şuşadan salamladı. Cənab nazirimizin çıxışı çox böyük əhəmiyyət kəsb edirdi. Bələki, o, çıxışında 190 illik yubileyi keçirilən Xurşidbanu Natəvanın şəxsiyyətindən, personasından söz açaraq onun "Məclisi-üns" adlanan yazıçılar birliyi haqqında da gözəl fikirlər bildirdi. Anar müəllimin çıxışının məzmununun bir hissəsi də ondan ibarət idi ki, Şuşanın azad olunması ilə birgə Şuşaya təzə həyat və nəfəs gəldi. Biz Şuşaya böyük qayıdışımızı elan etdik. Bu böyük qayıdış həm də mədəniyyət sahəsindədir.

*(Davamı var)*

Sevindik Nəsiboğlu